Azərbaycan müəllimi

21 НОЈАБР 1995-ЧИ ИЛ.

# Ш. Т. СӘФӘРОВ



Азәрбајчан елми-педагожи ичтимаијјәтинә вә мәтбуатына ағыр итки үз вермишдир. Республиканын әмәкдар мүәллими, әмәкдар елм хадими, филолокија елмләри доктору, профессор Шаһин Тағы оғлу Сәфәров алтмыш једди јашында гәфләтән вәфат етмишдир.

Ш. Т. Сәфәров 1928-чи ил декабрын 31-дә Нахчыван Мухтар Республикасы Шәрур рајонунун Гарабағлар кәндиндә анадан олмушдур. О, 1936—1944-чү илләрдә Гарабағлар кәнд мәктәбиндә охумуш, 1946-чы илдә Нахчыван икиллик Мүәллимләр Институтуну, 1951-чи илдә Азәрбајчан Дөвләт Университетинин (индики БДУ-нун) филолокија факүлтәсини битирмишдир. Әввәлчә Бакы шәһәриндәки 121 вә 129 сајлы мәктәбләрдә педагожи фәалијјәтлә мәшғул олмуш, 1958-чи илдә исә «Азәрбајчан мүәллими» гәзети редаксијасына ишә көндәрилмишдир. 1962-чи илдә гәзетин редактор мүавини, бир аз сонра исә редактору вәзифәләринә ирәли чәкилмишдир. О һәмин гәзетә отуз ил башчылыг етмишдир. Сон илләр исә «Шәһријар» гәзетинин редактору иди.

Ш. Т. Сәфәров мүнтәзәм сурәтдә елми фәалијјәтлә дә мәшғул олмушдур. 1969-чу илдә диссертасија мүдафиә едәрәк педагожи елмләр намизәди, 1983-чү илдә исә филолокија елмләри доктору елми дәрәчәләри алмышдыр. О, јүзләрлә елми-методик мәгаләнин, бәдии әсәрләрин, «Сәнәткар вә заман», «Әдәбијјат дәрсләриндә шакирдләрин елми дүнјакөрүшүнүн формалашдырылмасы», «Әдәбијјат гүдрәтли тәрбијә васитәсидир», «Әдәбијјат тәдриси вә јени инсан тәрбијәси», «Азәрбајчан әдәбијјаты вә шакирдләрин вәтәндашлыг тәрбијәси», «Шакирдләрин бәдии тәфәккүрүнүн инкишафы» кими санбаллы китабларын мүәллифидир.

Ш. Т. Сәфәровун әмәји дөвләтимиз тәрәфиндән јүксәк гијмәтләндирилмишдир. О, «Шәрәф Нишаны», «Халглар достлуғу» орденләри вә «Әмәк игидлијинә көрә» медалы илә тәлтиф едилмиш, республиканын әмәкдар мүәллими, әмәкдар елм хадими фәхри адларына лајиг көрүлмүшдүр.

Ш. Т. Сәфәровун хатирәси ону танышанларын гәлбиндә әбәди јашајачагдыр.

**Л. Рәсулова, Ә. Абдинов, И. Һәсәнов, Р. Зүлфүгарзадә, М. Әләскәров, З. Гаралов, Ә. Әһмәдов, А. Гасымов, А. Чаһанкиров, А. Мурадов, И. Мустафајев, Һ. Зејналов, Е. Әлијева, М. Әлијев, Р. Ағамалыјев, Ј. Балајев, Н. Абдуллајев, И. Әлијев, Р. Мәммәдзадә, Ә. Гулијев, М. Баһарлы.**